# İNSANLIĞIN POEZİYASI

## Cavad Zeynalın "köhnə kişi" formulu

Sənət adamları tərənnüm etdikləri ədəbi qəhrəmanı sıradan bir obraz kimi əxz etmirlər. Onun hansısa qabarıq görünən elə keyfiyyətini, xarakterinin elə cizgilərini seçirlər ki, bununla o, digərlərindən fərqlənir və məhz bu fərqi ilə görünür. Həqiqətən seyrçi bir nəzərlə yanaşmalı olsaq, insanların bir-birinə çox bənzədiyini və demək olar ki, ümumi bir tip kimi göründüyünü iddia edərik. Amma əslində, belə deyil. Diqqətlə yanaşılsa, hər bir insanın təbiətindən görünən bir keyfiyyət onun kimliyini göstərir.

Şəddad Cəfərov haqqında danışırıqsa, onun hansı cəhətlərinə görə şairlərin diqqətini cəlb etdiyini bu və ya digər dərəcədə əvvəlki yazılarımızda göstərmişik; mümkün qədər onun obrazının görünən və görünməyən tərəflərini açmağa çalışmışıq. Bu da bizə əsas verir ki, belə bir iddiada olaq; Şəddad müəllim müşahidə olunduqca yeni görünən cəhətlərilə ədəbi obraza, həm də hər bir sənətkar üçün orijinal ədəbi obraza çevrilə bilər.

Azərbaycan ədəbi mühitində Cavad Zeynal kifayət qədər yüksək ədəbi təcrübəyə, bədii intellektə malik sənətkar kimi tanınır. Əgər belə demək mümkünsə, onun tapındığı ədəbi meyarlar kifayət qədər zamanın sınağından çıxıb. Yəqin ki, elə bu səbəbdən o, hər hansı bir şəxsi ucuz təriflə, ucuz sözə çəkmək istəməzdi. Demək, şairin mənəvi mühitinə ciddi təsir göstərən amillər var. Yəni söz əhatəsinə gətirmək istədiyi ədəbi qəhrəmanın elə cəhətləri var ki, ya qeyrilərində təkrarlanmır, ya da çox az insanlarda təzahür edir.

Cavad Zeynal Şəddad müəllimi "köhnə kişi" formulu ilə yazıya gətirir. Elə şeiri də "Köhnə kişilərdən qopub qalmısan" adlanır. Niyə köhnə kişilərdən?... Ümumiyyətlə, insanlar arasında həmişə keçmiş idealizə olunur. Keçmişdə təbiətin yaxşı olmağından, havaların təmizliyindən, suların duruluğundan danışırıq. Keçmişdə insanların daha qüdrətli, daha əzəmətli olduğunu iddia edirik. Ötən zamanlarda kişi sözünün bütövlüyü haqqında əfsanələr, rəvayətlər danışırıq. Və nəhayət, "keçən günə gün çatmaz, calasan günü-günə", - deyirik.

Beləliklə, idealizə etdiyimiz keçmişin köhnəliyini indinin təzəliyinə qarşı qoyuruq. Və bununla da cəmiyyətdə insanlara örnək ola biləcək bir nümunə, örnək formulu yaradırıq. Əgər gördüyümüz, tanıdığımız dünyanın hansısa bir tərəfi keçmişi yada salırsa, ötən zamanları bizim xatirəmizdə canlandırırsa, biz buna sevinirik. Əsas da ona görə sevinirik ki, bu gün realizə edə bilmədiyimiz arzu və istəkləri keçmişin ən gözəl ənənələrini yaşadan nadir bir nüsxə ilə qarşılaşırıq. Şəxsiyyət tipi kifayət qədər ömür yaşamış insanların düşüncəsində qəlibləşmiş obrazı bizə canlandıra bilirsə, onu sanki keçmişdən qopub gəlmiş və bizim arzu etdiyimiz keçmişi də bizə qaytarıb gətirirsə... niyə sevinməyək?..

Bir şair kimi Cavad Zeynalı da ilhama gətirən, yazısının mahiyyətində, məğzində bütövlük rəmzi kimi tanıdığı bir insanın obrazı dayanırsa, demək, o da söz sahibi kimi, qələm əhli kimi yaddaşının oyanışına görə istinad etdiyi obraza borcludur.

Şair "İlk alim poliqrafçımız Şəddat Cəfərova" epiqrafı ilə yazdığı şeirində köhnə həyatı yox, keçmiş həyatın ən üstün keyfiyyətlərini özündə cəmləyən insanı tərənnüm edir.

Köhnə kişilərdən qopub qalmısan,
Bu qopma nə qədər xoş gəlir mənə.



Mehrini zəhmətə elə salmısan,
Çəkdiyim ağrılar boş gəlir mənə.

Göründüyü kimi, şair istinad etdiyi ədəbi qəhrəmanı ötüb keçmiş zamanın bütöv kişi obrazından qopub qalmış bir parça hesab edir. Axı zaman sürətlə dəyişir. Hər nə var, özü ilə çəkib aparır. Amma nadir olan hadisələr də var. Ş.Cəfərov kimisinin biri beləcə həmin kişilərdən qopub qalmış bir zərrə kimi zəmanəmizə gəlib çatır. Dünyaya ümidsiz, dünyaya sabahı olmayan bədbin bir tarix kimi yanaşmırıq. Onu elə qavramaq istəyirik ki, bizi niubin bir ruh sarsın, gələcəyə nikbinliklə baxaq, insanlığın gələcəyinə inana biləк. Ona görə də şair sevinir ki, baxmayaraq onun ədəbi qəhrəmanı keçmiş kişilərdən qopub qalıb, bəlkə, onun zamanı da ötüb keçib. İndiki zaman başqa hava çalır, indiki dövran başqa cür insanlarındır... Yox, məhz keçmişdən, keçmiş dünyadan indi bizimlə olmayan nizamdan xəbər verən, bütövlük rəmzi olan bir qopma var isə, bu, şairin özünə də xoş gəlir, onun oxucusuna da. Bir sözlə, insanlığın özü gələcəyə nikbin baxmaqda inamlı olacaq. Çünki keçmiş nə qədər sürətlə bizdən uzaqlaşsa da, özünü tamamilə bizdən qoparıb apara bilmir. Onun hansısa bir nişanəsi yenə bizimlə qalır, yenə bizim dünyamızı keçmiş dünya ilə bağlayır, əlaqələr itmir, varislik qırılmır. Biz onun timsalında halal zəhmətin əməyə, halallığa bel bağlamağın, düzgünlüyə tapınmağın nümunəsini görürük. O, özü də bu dünyanın insanları ilə hardasa düz gəlmir, hansı cəhətdənsə, keçmiş dünyanın üstünlüyünü yada salır. Bu gün olmayan keyfiyyətlərə görə təəssüf hissi keçirir, ağrı daşıyır. Bə bu ağrı şairə ona görə xoş gəlir ki, onun özü də ədəbi qəhrəmanının təbiətini hiss edir, duyur, sanki şeirinin ritmində onun nəbzinin ahəngini görür.

Şair yaxşı bilir ki, belə adamların əkdiyini sellər-sular yuyub apara bilməz. Onun səpdiyi toxumları qarğaquzğun dənləyə bilməz. Bu toxumlar xasiyyətdir, xarkterdir, ləyaqət və şərafət keyfiyyətləridir. Ona görə də hər hansı bir insanın mayasında, ruhunda, varlığında saflıq olan insanın təbiətinə yol tapacaq və orada mütləq rişə atacaq, cücərəcək, boy verəcək:

Əkdiyin həmişə bitib, cücərib,
Baxmısan, göylərdən nur yağıb elə.
Bir əlin sularda çəltik becərib,
Bir əlin quruda ot yığıb elə.

Halal zəmi, halal tarla heç ola bilməz ki, məhsul vermədən yansın, külə dönsün. İnsanların iç dünyasından gələn bir istək halal tarlanı əkib-becərənin mənəviyyat süfrəsinə yol açır. C.Zeynalın ədəbi qəhrəmanı Şəddad Cəfərov da təbiət etibarilə həyatın bütün əzablarına sinə gərə bilir. Bir əli ilə çəltik əkir - şair burada maraqlı müqayisə aparır; çəltik halallıq, bərəkət rəmzidir. Əgər zəhmət Tanrının nəzərilə bar-bəhər gətirəcəksə, onda insanlar naümid qalmayacaq. Amma zaman o qədər qəddardır ki, baxmayaraq ki, Şəddad kimi adamların bir əli çəltik əkir, o biri əli kasıblığı, çətinliyi, ehtiyacı ehtiva edən ot yığır. Şair də müqayisəsinin davamında bu "otu" nəzərdə tutur.

Yəni həyatı bütün qabalığı ilə görüb, yaşayan adamdır. Və heç şübhəsiz, bu xasiyyət onu dəmiri kürədə közərdən kimi közərdib. Yəni həyatın ən ağır sınaqlarına dözməli olub. Təcrübə sahibidir, yüksək dərəcədə həyat bilgisi var. Və həm də həyatı elə yaşayıb ki, başqalarına öyüd-nəsihət vermək haqqı da var:

Çətində bişmisən, bərkdə bişmisən,
Gələnlər səninlə hesablaşıblar.
Bir həyat timsalı görkdə bişmisən,
Paxıllar, xəbislər yallar aşıblar.

İş burasındadır ki, ən halal adamın da, ən düzgün insanın da, hədsiz dərəcədə ləyaqət və şərafət sahibinin də bu dünyada paxılları var. Beləlləri sanki alaq kimi ən saf toxumların əkildiyi, ən halal zəhmətin də becərdiyi zəmi içində bitən alaq kimidir. Hardan olsa, cücərib qalxır, halal buğdanı, çəltiyi boğmaq istəyir, məhv etmək istəyir. Təbiidir ki, bu, həyat uğrunda mübarizədir. Bu mübarizəni insanlar tarix boyu yaşayıblar. Şübhəsiz, Ş.Cəfərov da istisna deyil. O da bu ağır yolları özünün inamı, inadı və iradəsilə keçib:

Gələnin, gedənin çoxalıb sənin,
Qəlbinə özgə hiss dolmayıb ancaq.
Yerinə göz dikən çox olub sənin,
Yerini verənlər olmayıb ancaq.

İndi şair Cavad Zeynalın da və digər şairlərin də sevə-sevə tərənnüm etdiyi, çox böyük istəklə haqqında ən xoş sözləri yazdıqları insanı yaxşı tanımaq bu günün adamı kimi mənə də qismət oldu. Onun ən çətin durumda belə nikbinliyini təbiətindən qoparıb ala bilməzsən. Onun varlığına insanlıqdan kənar, insana yabançı olan bir hiss yol tapa bilməz. Elə bu səbəbdən də, hətta onun min bir zəhmətlə, halallıqla qalxa bildiyi yerini çox asanlıqla zəbt etmək istəyində olanlar da var. Bu adamın ən üstün keyfiyyəti orasındadır ki, o, belələrinə qarşı da sonsuz dözüm və dəyanət göstərə bilir. Hətta arxasınca danışanların, ayağının altını qaşıyanların əməllərindən xəbər tutanda belə onların üzünə vurmur. Onlara bir soyuq münasibət də göstərmir. Heç şübhəsiz, o, Tanrının böyük nizamına inanır. Yaxşı bilir ki, bu dünyada haqq-hesabı çəkilməyənləri Tanrı öz dərgahında qədərincə cəzalandıracaq, əməlləri açılacaq, çiy tərəfləri görünəcək. Hətta özləri bu ifşaolunmaların şahidi olmasalar belə, övladları ata-babalarının kəsir keyfiyyətlərindən xəcalət çəkəcəklər.

Şəddad Cəfərov aciz adam deyil. Öz işində peşəkar olduğu kimi - poliqrafiyanın bütün incəliklərinə bələd olduğu kimi, öz işinin elmi mahiyyətinə də yüksək dərəcədə halıdır. Onu qaralamaq istəyənlər yəqin ki, bir çox mətləbləri üzünə deyə bilmirlər. Çünki Ş.Cəfərovun elmi və təcrübəsi heç bir sualın, heç bir ittihamın qarşısında aciz ola bilməz.

Şair C.Zeynal Şəddad Cəfərovu bir alim kimi tərənnüm edir. Ağıl və idrak sahibi kimi oxucusuna tanıdır. Bütün hallarda, bütün qarşılaşma məqamlarında Ş.Cəfərovun elmi düşüncəsi, onun daxili aləmindən zahirinə işıq kimi yayılır. Ağlı ilə, idrakı ilə ən çətin ictimai durumu nizamlaya bilir. Və bu zaman onun təbiətindəki bu üstünlükləri görənlərə özü bir canlı əfsanə təsiri bağışlayır. Bu düşüncələri şair C.Zeynal şeirə məharətlə gətirir:

Elmindən, helmindən çəkinib çoxu,
Baxıb ki, ortada ağıl görünür.
Sənin töhfələrin kiməsə yuxu,
Kiməsə bir şirin nağıl görünür.

Bu nağıl insan, bu əfsanə insan cəmiyyətə həmişə elə töhfələr verib ki, görənlər seviniblər. Hətta bu töhfələrdən hər kəsə pay düşüb. Hər kəs anlayıb ki, dunyada insan kimi yaşamağın dəyəri heç vaxt ucuzlaşa bilməz. Ali varlıq olan insanın zəngin mənəvi mühiti özündən sonra da bu və ya digər dərəcədə hansı əməlindəsə yaşayır. Demək, yaxşı insanların həyatı yuxu deyil, reallıqdır. Dünya ilə əlbir, dilbir olmaqdır, dünyanın ən gözəl tərəflərini sevməkdir.

Şair C.Zeynal yaxşı insanları, bütöv kişiləri, ləyaqət sahiblərini cəmiyyətin ürəyinə bənzədir, cəmiyyətin mənəvi mühiti, əslində, sağlam təbiətli insanların sayəsində nizamını qoruyub saxlayır:

Ürəyə dönmüsən, çarpan ürəyə,
Elə boşalırsan, elə dolursan.
Dinirsən, sözlərin dönür kürəyə,
Susursan, bir şirin qədim olursan.

Doğrusu, Cavad Zeynalın imzasını tanısan, yaradıcılığına az-çox bələd olsam da, özü və ömür yolu haqqında bilgim azdır. Farslar demiş, "müşt nümuneyi xalvarəst", yəni bir ovuz xalvardan nümunədir. C.Zeynal kimi şairlərin poetik mükəmməlliyinə bir şeiri də - elə Ş.Cəfərova həsr olunmuş ithaf şeiri də nümunədir. Şair həmin şeiri 12.05.2015-ci il tarixində yazıb. Yəqin ki, Ş.Cəfərovun 75 illik yubileyi ərəfəsində. Hər halda bu şeir Şəddad Cəfərovun şəxsiyyətinin poeziyaya gətirilməsində - düşüncə əks-sədasında maraqlı səhifələrdən biridir.

* * *

Ş.Cəfərova həsr olunmuş poetik ədəbi nümunələrin təhlilinə son veririk. Lap əvvəlcə, yazının başlanğıcında bir qədər tərəddüdlərimiz də vardı. Çünki Ş.Cəfərov kimi maraqlı insanların zəngin mənəvi mühitini açmaq üçün yazılmış poetik nümunələri həyatın reallığı fonunda təhlilə çəkmək asan deyildi.

Bütün bunlar ötüb keçdi. Yaradıcılıq həyəcanları ilə müşayiət olunan duyğularımızla həm Ş.Cəfərovun mənəvi aləminə səyahət elədik, həm də onun haqqında yazmış müəlliflərin poetik düşüncələrini imkanımız qədərində estetik zövq müstəvisinə gətirdik.

Əvvəllər demişəm, yazıya pozu yoxdur, əgər yazılan bilərəkdən pozulmursa...

*Əli Rza XƏLƏFLİ*
*30.12.2019*